**“Azər Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin səhmdarlarının nəzərinə**

22 iyun 2026-cı il tarixində saat 12:00-da “Azər Türk Bank” Açıq Səhmdar Cəmiyyəti səhmdarlarının növbəti ümumi yığıncağının keçirilməsinə dair qərar qəbul edilmişdir.

Ümumi yığıncağın gündəliyinə aşağıdakı məsələ daxil edilmişdir:

1. “Azər-Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin kənar auditor tərəfindən yoxlanılmış 2025-ci ilin maliyyə hesabatlarının və 2025-ci ilin idarəetmə hesabatının təsdiq edilməsi.

Bankın Nizamnaməsinin 7.6-cı bəndinə əsasən, gündəlikdə olan məsələyə dair münasibətinizi 22.06.2026-cı il tarixinədək bülleteni çap edib müvafiq qaydada dolduraraq (məsələlərə münasibətinizi dəqiq və şərtsiz bildirmək (lehinə, əleyhinə, bitərəf) və imzanız qanunvericilikdə müəyyən edilmiş qaydada (notarial və sair) təsdiq edilmək, habelə imza səlahiyyətinizi təsdiq edən sənədi (səlahiyyətli nümayəndə olduğu təqdirdə, etibarnamə) təqdim etmək şərti ilə) qapalı zərfdə Bakı şəhəri, C. Məmmədquluzadə küç. 85; 192/193 ünvanında, Bankın inzibati binası ünvanına 22.06.2026-cı il tarixədək göndərməklə səsvermədə qiyabi iştirak edə bilərsiniz.

Yuxarıda qeyd olunan qaydada təqdim edilmiş zərflərin açılması, eləcə də elektron qaydada verilmiş səslərin sayılması ümumi yığıncağın keçirildiyi gün həyata keçiriləcəkdir.

İclas materialları ilə tanış olunması üçün Bankın Korporativ katibi Sona Məmmədli ilə (elektron poçt: sona.m@atb.az, tel: +99470-739-30-41) əlaqə saxlaya bilərsiniz.

Səhmdarların növbəti ümumi yığıncağı Bankın inzibati binası yerləşən Bakı şəhəri, Nəsimi rayonu, C. Məmmədquluzadə küçəsi 85; 192/193 ünvanında keçiriləcəkdir.

**“Azər Türk Bank” Açıq Səhmdar Cəmiyyətinin Korporativ katibi**

**Sona Məmmədli**